# TÜRK DÜNYASI VƏ GÜRCÜSTAN XI ƏSRİN SON RÜBÜNDƏ

**Y.NƏSİBLİ**
***Bakı Dövlət Universiteti***
***ynasibli@yahoo.com***

*Məqalədə Cənubi Qafqaz bölgəsində XI əsrin son rübündə gedən siyasi və etnik prosesslər, o cümlədən xüsusi ədəbiyyatda ilk dəfə olaraq böyük Səlcuqilər sultanı Məlikşahın dövründə Gürcüstan çarı Giorgi II tərəfindən islamı qəbul etməsi və Qanıx çayının oğuz tayfası "kınık"la bağlı olduğu göstərilir.*

Cənubi Qafqaz bölgəsində monqol işğallarına qədərki dövrə aid türkcə yazılı tarixi ədəbiyyatın azlığı üzündən sinxron gürcü narrativ mənbələri xüsusi əhəmiyyət kəsb edir. Gürcü salnaməçiləri hərbi-siyasi hadisələrin təsvirinə üstünlük versələr də, həmin salnamələrdə nəzərdən keçirilən dövrdə Azərbaycan ərazisində mövcud olmuş şəhərlər və qalalar, iqtisadi-ticarət əlaqələri və ayrı-ayrı etnik birliklər haqqında pərakəndə halda məlumatlara təsadüf etmək mümkündür. Azərbaycan tarixşünaslığında bu əsərlərin tədqiqata cəlb olunması bir qayda olaraq fasiləli səciyyə daşıyır. Azərbaycan tarixçilərinin istifadə etdikləri başlıca gürcü mənbəyi XVIII əsrdə qərəzkarlıqla, birtərəfli şəkildə redaktə olunmuş, M.Brosse tərəfindən fransız dilinə tərcümə edilmiş, orta çağların gürcü salnamələrinin toplusu olan «Kartlis Tsxovreba»dır (1). Təqdim olunan məqalədə biz gürcü dilində olan həmin mənbələrdəki məlumatları tədqiqata cəlb etmişik. Bu məlumatlar əsasən XI-XII əsrlərdə oğuz türklərinin (daha geniş miqyasda isə Səlcuqilərin) Cənubi Qafqazın mərkəzi hissəsindəki feodal dövlətləri ilə hərbi-siyasi və etno-dini münasibətləri məsələlərinə aiddir.

Göstərilən problemlər üzrə daha tam və xronoloji cəhətdən daha ardıcıl materiallar «Kartli salnaməsi» (XI əsr) və «Çarlar çarı Davidin tərcümeyi-halı» (XII əsrin ilk otuzilliyi) əsərlərində mövcuddur. «Kartli salnaməsi» (2) Cənubi Qafqazın feodal dövlətləri arasındakı qarşılıqlı münasibətlər məsələsinin işıqlandırılması üçün mükəmməl tarixi qaynaqdır. Bu əsərdə Səlcuqilər dövründə oğuz türklərinin ilk dəstələrinin bölgədə meydana çıxması və XI yüzilliyin 40-70-ci illərində onların Cənubi Qafqaz hökmdarları ilə münasibətləri kifayət qədər müfəssəl (ətraflı) şəkildə təsvir olunmuşdur. Gürcü tarixşünaslığında «Tarixçi Davidin əsəri» kimi məlum olan «Çarlar çarı Davidin tərcümeyi-halı» (3) əsəri mahiyyətcə (əslində) «Kartli salnaməsi»nin davamı qismində qəbul olunur. Bu əsərdə olan məlumatların mötəbərliliyi sinxron müsəlman yazılı, narrativ və epik qaynaqların məlumatları, sənədli, epiqrafiq və numizmatik materialla da təsdiqlənir.

XI əsrdən XIII əsrin əvvəllərinədək yaşamış gürcü müəlliflərinin əsərlərinin («Matiane Kartlisa»nın, çar Davidin saray tarixçisinin əsərinin və çariça Tamaranın tərcümeyi-hallarının (4)) məzmunu təsdiq edir ki, bu əsərlər baş vermiş hadisələrin müasirləri və şahidləri tərəfindən tərtib olunmuşdur. Bu cəhət Davidin tarixçisinin

əsərində xüsusilə nəzərə çarpır. Göstərilən qaynaqların mətnlərinin öyrənilməsi və təhlili təsdiq edir ki, həmin əsərlərin müəllifləri yalnız xristian dünyasının deyil, habelə müsəlman Şərqi ölkələrinin qədim tarixi ilə tanış idilər (5,7). XI-XIII əsrlər gürcü salnaməçilərinin Şərqə diqqətinin güclənməsi şübhəsiz, Ön Asyanın hərbi-siyasi meydanına oğuz türklərinin çıxması, onların 1071-ci ilin avqust ayında Malazgird yaxınlığında baş vermiş həlledici döyüşdə bizanslıları məğlub etməsi və bilavasitə Gürcü çarlığının cənub sərhədlərinə çıxması ilə bağlı olmuşdur. Davidin tarixçisinin bu barədə məlumatına nəzər yetirək: «…türklər gücləndikdən sonra yunanlar (bizanslar-red.) Şərqdə malik olduqları vilayətlərini, qalalarını, şəhərlərini tərk etdilər, uzaqlaşdılar. Türklər bu qalaları və şəhərləri ələ keçirdilər və oralarda məskunlaşdılar. Onlar bizim sərhədlərimizə yaxınlaşdıqları üçün bizim qorxularımız və müsibətlərimiz artdı» (3,318).

Sultan Alp Arslanın dövründə (1063-1072) Cənubi Qafqazda başlanmış işğalları onun oğlu Məlikşah (1072-1092) uğurla davam etdirdi və möhkəmləndirdi. Onun hakimiyyəti dövründə yeni və həlledici mərhələ başlandı. Bu mərhələ onunla fərqlənirdi ki, oğuzlar artıq yalnız qənimət, əsir ələ keçirməklə kifayətlənmir, bütün mühüm strateji və inzibati məntəqələrdə məskən salırdılar. 1075-ci ildə Səlcuq sultanı Məlikşah Gəncədə Şəddadilər sülaləsinin hakimiyyətinə son qoydu. Sərhəng Savtekin burada Səlcuq hökmdarının canişini təyin edildi. Savtekin sultanın göstərişinə uyğun olaraq qarşıya qoyduğu vəzifənin - yaxınlıqda yerləşən feodal hakimliklərini (Şəki-Kaxetiya, Gürcü-Abxaz, Lore-Taşir) tabe etmək və onların üzərində nəzarəti gücləndirmək üçün Gəncəni əsas istinadgaha çevirdi. Gürcü qaynağının məlumatına görə, bu dövrdə Gəncədə oğuz sərkərdəsinin rəhbərliyi altında 40 min nəfərdən artıq döyüşçü vardı (2,317).

1076-cı ildə Savtekin qəti olaraq Cənubi Qafqaz hakimlərini Səlcuqi hakimiyyətinə tabe etməyə cəhd göstərdi, lakin rəqiblərinin birgə çıxışları, səyləri onu geri çəkilməyə məcbur etdi. Məhz Savtekinin bu uğursuzluğu və bundan sonra gürcü çarı II Georginin Gürcüstanın cənubunda və cənub-qərbində (Acarıstanda, Şavşetiyada, Cavaxetiyada) oğuzların ayrı-ayrı hərbi dəstələrinə qarşı uğurlu əməliyyatları XI əsrin 70-ci illərinin sonlarında böyük Səlcuq sultanı Məlikşahın əsas qüvvələrlə Cənubi Qafqaza təkrar hərbi yürüşünün səbəbi oldu. Həmin hərbi yürüşün nəticəsi ondan ibarət oldu ki, bu yürüşdən sonra Xəzər dənizindən «Kiçik Lix dağlarınadək» (3, 324; 6) Cənubi Qafqazın bütün Şərq qismi bilavasitə Səlcuqların Oğuz imperiyasının tərkibinə daxil edildi, lakin Kutaisi mərkəz olmaqla qərbi Gürcüstan, Kaxetiya-Şəki çarlığı və Şirvanlar dövləti həmin imperiyanın vassal mülkləri elan olundular, çar Axsartan və bizim fikrimizcə, çar II Georgi itaət əlaməti olaraq xristianlıqdan imtina etdilər və islamı qəbul etdilər. Tarixçi Davidin məlumatına görə, çar II Georgi «öz təbəələrinin xilası naminə ruhunu və qanını qurban verməli oldu, sevimli oğul kimi Məlikşah tərəfindən əfv edildi» (3, 321-322). Hələ akademik N.A.Berdzenişvili qeyd edirdi ki, «Biz Davidin taxta çıxmasının necə baş verdiyinə dair birbaşa məlumatlara malik deyilik» (7, 25) və əsər müəllifinin «atanın özü» ifadəsi ilə kimi (çar Georginin özünü və yaxud Tanrı-atanı) nəzərdə tutduğunu da bilmirik, əgər Tanrı-ata nəzərdə tutulurdusa, «Davidin tərcümeyi-halı»nın dini dairələrə mənsub olan müəllifinin deyim tərzində bu, tamamilə anlaşılan olardı (8, 88).

Vaxtilə F.Jordaniya da belə bir cəhətə diqqət yetirmişdi ki, həm «Çar Davidin vəsiyyətnamə»sində, həm də Davidin tarixçisinin əsərinin özündə «Tanrının xatırlamayacağı gənclik günahlarının» bağışlanması barədə xahiş vardır. Gürcü tədqiqatçısı

güman edirdi ki, bu xahişlə Davidin zorla taxta çıxarılması arasında əlaqənin olduğu mümkündür (9,24, şərh 66; 10, 240-241).

Bizim fikrimizcə, deyilənlər çar Davidin ibadət (yalvarış) nəğməsi ilə də vasitəli surətdə təsdiqlənir. Burada o, 1089-cu ildə atası II Georginin (1112-ci ildə dünyasını dəyişmişdir) devrilməsindən sonra onun ruhunu incidən məqamları dilə gətirir. David öz əməlinə haqq qazandırmaq üçün deyir: «Mən başqa tanrıya tapınmaz və başqa dinlə əylənməzdim (başqa dini qəbul etməzdim - Y.N)» (11, VII,2). Görünür ki, həmin dövrdə Səlcuqilərdən vassal asılılığına düşmüş hökmdarların islam dinini qəbul etməsi məcburi şərt olmuşdur. XII əsr müəllifi olan Suriyalı Mixailin əsərində Edessa (Türkiyə Cümhuriyyətində müasir Şanlıurfa şəhəri) hökmdarı Filaret haqqında da bəhs olunur. Həmin hökmdar sultan Məlikşahın dövründə islamı qəbul etmiş və bu əməli ilə nəinki şəxsi hakimiyyətini qorumuş, hətta öz mülklərini genişləndirə bilmişdi (12,23). Bizim müşahidələrimizə görə, çar II Georgi hərbi-siyasi şəraitin təsiri altında islam dinini qəbul etməli olmuş ilk xristian hökmdarı idi, sonralar Gürcüstan ərazisində mövcud olan ayrı–ayrı siyasi qurumlara başçılıq etmiş və hökmdarların islamı qəbul etməsi daha müntəzəm səciyyə aldı. Məsələn, Əmir Teymurləngin (1370-1405) dövründə, 1386-cı ildə çar Baqrat, XVI-XVII əsrlərdə Osmanlı sultanlarından və yaxud Səfəvi şahlarından asılı olmuş gürcü çarlıqlarının və knyazlıqlarının hökmdarları da islamı qəbul etməli olmuşlar.

Məlikşahın əmrinə əsasən gürcü çarı II Georgini müşayiət etmiş oğuz hərbi dəstəsi «Sucetini və Jorinin axarı boyunca bütün Kaxeti diyarını» (3,322) tutmuşdu, həmin ərazilərdə bu zamandan etibarən bir sıra türk coğrafi anlayışları, o cümlədən «Ucarma» (bizim fikrimizcə, «uc» sözündən törəmədir, bax: 14,725-740), «Qanux» adlanan yaşayış məntəqəsi və Alazan çayının Azərbaycan türkcəsində adı - «Qanıx» (3, 334, 338) qeydə alınır.

Göstərilən etnotoponimlərin və hidronimin meydana gəlməsi burada «qınıq» oğuz tayfasının məskən salması ilə bağlıdır. Səlcuqilər sülaləsindən olan sultanların özləri də bu tayfaya mənsub olmuşlar və bu barədə aşağıda bəhs ediləcəkdir.

Səlcuqilər imperiyasının yaranması bütün bölgənin siyasi və etnik xəritəsinin dəyişməsinə, burada türklərin sayının artmasına və təsirinin güclənməsinə gətirib çıxardı. Bu proses öz əksini yazılı gürcü qaynaqlarında, xüsusilə Davidin tarixçisinin əsərində tapmışdır: onun məlumatına görə, türklər «gəlir və Qaçianidə, habelə Tbilisidən Bərdəyədək Kür sahilləri boyunca və İori çayının sahillərində məskən salırdılar» (3, 322). Oğuz qəhrəmanlıq eposu olan «Kitabi-Dədə Qorqud»un mətnindən də belə bir nəticə hasil olur ki, Bayandur xan Gürcüstanın doqquz tümənindən xərac alırdı (13, 202). Fəth olunmuş torpaqların mənimsənilməsi prosesi elə intensiv miqyas almışdı ki, artıq XII-XIII əsrlərin hüdudunda (qovuşuğunda) çariça Tamaranın saray tarixçisi (salnaməçisi) «Gelakunu» (Göyçə – Y.N.) gölündən Bərdəyədək olan bölgədə yerləşmiş «uc» adlanan 100 min «cəsur və təcrübəli türk döyüşçüsü» (4, 132-133) haqqında məlumat verir. Davidin tarixçisi isə qeyd edir ki, «türklər öz şəhərlərində ticarət edirdilər…, və onların sayı və gücü elə böyük idi ki, hətta deyirdilər: «Hər yerdən türklər orada cəmləşmişlər. Onların istədikləri yerdə məskən salmasına heç kəs, hətta sultanın özü belə qadağa qoya bilməzdi» (3, 332). Davidin tarixçisi qeyd edir ki, «oğuzlar öz şəhərlərində ticarət edir», öz həyat tərzini heç kəsə qəbul etdirməyə can atmırdılar. Əksinə, əlverişli şərait olan yerdə türklərin özləri oturaq kənd sakinlərinə çevrilir, əhalinin hakim təbəqəsini, təşkil etdikləri şəhərlərdə isə şəhər həyat tərzi keçirirdilər (bax: 15).

Söylənilənləri təsdiq etmək üçün gürcü qaynaqlarında və «Kitabi Dədə Qorqud» eposunda təsadüf olunan əsası oğuz türkləri tərəfindən qoyulmuş, yaxud onlar tərəfindən XI-XII əsrlərdə bərpa olunmuş, adları dəyişdirilmiş bəzi şəhər və qala adlarını xatırladaq: Ağcaqala (16,43-47), Arqubel, Sevgelemec, Qarluqa, Qanux, Tumanis (indiki Dmanis şəhəri – Y.N.) və b. Adları sadalanmış bütün yaşayış məntəqələri Cənubi Qafqazda və Türkiyə Cümhuriyyəti ilə həmsərhəd olan ərazidə əminliklə lokallaşır, bu isə gürcü tarixi qaynaqlarında və «Kitabi-Dədə Qorqud» dastanında olan məlumatların üst-üstə düşdüyünü qeyd etməyə imkan verir. Akademik O.L.Vilçevskinin sözləri ilə desək, «Kitabi Dədə Qorqud» dastanındakı məlumatlar «bir çox hallarda gürcü salnamələrinin məlumatlarını tamamlayır, dəqiqləşdirir və izah edir» (17,175).

İndi isə ayrıca və qısaca olaraq orta əsr qaynaqlarından bizə məlum olan, ilk dəfə məhz Davidin tarixçisinin əsərində təsadüf etdiyimiz «Qanux» («Qanıx») etnotoponimi üzərində dayanmağı zəruri bilirik. Davidin tarixçisinin əsərində bu adın ikinci dəfə xatırlanmasına çar Davidin 1120-ci ildə (3, 338) türk məskənlərinə növbəti hücumundan qayıdışından sonra təsadüf olunur. Bu, güman etməyə əsas verir ki, Qanıx gürcü çarlarını iqamətgahlarından biri olmuş, türklər oranı tərk etdikdən sonra David bu məntəqəni gürcü-qıpçaq qoşununun yardımı ilə ələ keçirmişdi. Qanıx haqqında daha bir məlumata çariça Tamaranın «birinci tarixçisinin» əsərində təsadüf olunur (4, 20; 18, 30). Bu məlumat təsdiq edir ki, Qanıx çar III Georginin zamanında (1155-1183) da Naçarmaqevi ilə yanaşı gürcü çarlarının iqamətgahı kimi qalmaqda idi. 1579-cu ildə verilmiş, feodal bəxşişlərinin siyahısının təqdim edildiyi bir tarixi sənəddə müasir Laqodexi şəhərinin yaxınlığında yerləşmiş Qanıx (19,9) kəndi haqqında məlumat vardır. Bu isə həmin yaşayış məntəqəsini Davidin tarixçisinin xatırlatdığı Qanuxla eyniləşdirməyə və Alazan (Qanıx) çayı ilə lokallaşdırmağa imkan verir. Aydındır ki, çar Davidin başçılığı altında qıpçaq-gürcü qoşununun hərbi əməliyyatlarının fəallaşması nəticəsində oğuzlar bu yerləri tərk etdilər, lakin özlərindən sonra Alazan (antik müəlliflər bu çayı «Alazoniy» adlandırırdılar-Y.N.) çayının türk adını, möhkəmləndirilmiş, sonralar çar Davidin ələ keçirdiyi və hərbi qarşıdurmanın ön mövqelərində öz qərargahlarından birinə çevirdiyi qalanın, yaşayış məntəqəsinin adını qoyub getdilər. Azərbaycan tarixşünaslığında artıq ötən əsrin 80-ci illərindən Cənubi Qafqazda oğuz tayfa adlarindan 18-nin etnotoponim şəklində olması məlumdur. Yuxarıdakıları nəzərə alaraq, biz belə hesab edirik ki, gürcü tarixi qaynağında Qanıx ("Ğanux") etnotoponimi oğuz türklərinin Mahmud Kaşğarinin «Divanu lüğət-it-türk» əsərindən məlum olan 24 tayfa birliyindən 19-cusu ilə bağlıdır. «Qanıqlar» etnotoponimi Şimali Azərbaycanda daha sonrakı tarixi dövrdə də qeydə alınmışdır: məsələn, 1823-cü ildə tərtib olunmuş «Qarabağ əyalətinin təsviri»ndə /20, 392, sənəd 33/ bu etnotoponimə təsadüf edilir. Lakin həmin etnotoponim zamanca ilk dəfə olaraq XII əsrin əvvəlində yazılmış gürcü qaynağında xatırlanmışdır və buna görə də məlumat orta əsrlər çağlarında Azərbaycanın etnosiyasi tarixinin öyrənilməsi üçün çox dəyərlidir.

## ƏDƏBİYYAT


1. Histoire de la Georgie. Depus lantiquile jusquan XIX -es siecle. Traduite du georgien par M.Brosset, St.Petersbourq, 1849, II -me livraison-1850.
2. Картли салнамяси // Вах:Картлис Тсховреба. С.1. Tiflis, 1955, s. 249-317 (gürcü dilində, bundan sonra – KS,I).

3. Чарлар чары Давидин тяръцмейи-щалы //KS, I, 318-364; Жизнеописание Царя Царей Давида. Сведения об Азербайджане и тюрках-сельджуках. Перевод с древне-грузинского, введение, комментарии и примечания Ю.М.Насибова //Средневековый Восток: история и культура. Ответственный редактор академик З.М.Буниятов. Баку: 1990, с. 124-158.
4. История и восхваление венценосцев. КЦ, II, Тбилиси: 1959, с.1-114; Басили Эзосмодзгвари. Жизнеописание царицы Тамары. КЦ, II, 115-150.
5. Caparidze G.İ. Gürcüstan və Yaxın Şərq müsəlman dünyası XII – XIII əsrin birinci qərinəsində. Tiflis: 1995 (gürcü dilində).
6. Lix dağları - indiki Suram dağ silsiləsidir. Gürcüstanı şərti olaraq qərb və Şərq hissələrinə ayırır.
7. Бердзенишвили Н.А. Gürcüstan tarixinin məsələləri. Cild VII. Tiflis: 1974, 311 s. (gürcü dilində).
8. Yenə orada. Cild IX. Tiflis, 1979, 279 s. (gürcü dilində).
9. Жордания Ф.Д. Завещание царя Возобновителя, данное Шио-Мгвимской лавре в 1123 году. Тифлис: 1895.
10. Tedo Jordaniya. Xronikalar və Gürcüstan tarixinə dair başqa materiallar. I. Tiflis: 1892; ikinci preprint nəşri – Tiflis: Artanuci, 2004, 378 s.
11. Давид Строитель. Покаянный Канон // Dawit der Erbauer. Renegesänge. Tbilissi, 1989, 48 s.
12. Гусейнов Р. А. Из «Хроники» Михаила Сирийца, s. 23 // «Памятники письменности Востока. Ежегодник – 1975». М.: 1982, s.16-33.
13. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.
14. Bax: Rauf Hüseynov. XI-XII yüzyıllarda Önasya'da askeri – feodalite müessesi – *uclar*. VIII. Türk Tarih Kongresi II Cilt'den ayrıbasım. Ankara, 1981, s. 725-740.
15. Мусульманский мир. М.: 1981, 271 с.
16. Насибов Ю. О географическом термине ***Агджакала*** из эпоса «Дедем Коргуд». // Советская тюркология, 1983, № 2.
17. Вильчевский О.Л. Рецензия на кн.: «Книга моего деда Коргута». Пер. акад. В.В.Бартольда. М-Л.: 1962 // Советская этнография, 1963, № 5.
18. История и восхваление венценосцев. Груз. Текст перевел, предисловием и примечаниями снабдил К.С.Кекелидзе. Тбилиси: 1954, 112 s.
19. Древности Грузии, т.1. Под редакцией Е.Такайшвили. Тифлис: 1920.
20. Описание Карабахской провинции (составленное в 1823 году по распоряжению Главноуправляющего в Грузии Ермолова). Тифлис: 1866, 425 s.

## ТЮРКСКИЙ МИР И ГРУЗИЯ В ПОСЛЕДНЕЙ ЧЕТВЕРТИ XI ВЕКА

**Ю.НАСИБЛИ**

### РЕЗЮМЕ

В данной статье мы привлекли сведения грузинских нарративных источников на языке оригинала – сочинений «Летопись Картли» (XI век) и "Жизнеописание царя царей Давида" (первая треть XII века). Надежность их сведений подтверждается данными синхронных мусульманских письменных нарративных и эпических источников, документальным, эпиграфическим и нумизматическим материалом.

Завоевания, начатые на Южном Кавказе при великом султане Алп-Арслане, успешно продолжил и закрепил его сын и наследник Маликшах (1072-1092). В 70-х годах XI в. вся восточная часть Южного Кавказа была непосредственно включена в

состав Огузской империи Сельджукидов находилась от нее в вассальной зависимости, а цари Ахсартан и Гиорги II в знак покорности вынуждены были отказаться от христианской веры и принять ислам. По свидетельству историка Давида, царь Гиорги «принес в жертву душу свою и кровь для спасения своих подданных». Сопровождавший царя Гиорги по приказу Мелик-шаха огузский отряд из племени *кыньк* занял весь край по течению Иори (Габырры), где отныне фиксируется ряд тюркских географических терминов - населенный пункт Ганух и тюркское (азербайджанское) название реки Алазани – Ганых. Учитывая, что в специальной литературе, начиная с 80-х годов прошлого века, говорится о наличии на Южном Кавказе 18 этнотопонимов, связанных с тюрками-огузами, у нас есть все основания полагать, что, благодаря сообщению грузинского источника, этнотопоним "Ганух" стал 19-ым из 24 племенных подразделений огузов, известных из сочинения Махмуда Кашгари «Дивану лугат-ит-тюрк».

## THE TURKISH WORLD AND GEORGIA IN THE LAST QUARTER OF XI CENTURY

**Y.NASSIBLI**

**SUMMARY**

The article studies special significance of synchronic Georgian sources for the history of the South Caucasus of pre-Mongolian period. In the present work, we associated information from "the Description of the Life of David, the King of Kings" (the first thee quarters of the 12th c) and synchronic Muslim works with ethno-political history and relations between Georgia and Oguz-turks of the Seljuk period in the last quarter of the 11th c. The conquest initiated by the Seljukids at the time of Sultan Alp Arslan were continued and escalated by his son Sultan Malikshah(1072-1092). The results were the inclusion of the whole of East Caucasus-from the Caspian Sea to "the Small Likhi Mountains"-in the Seljuk Empire and the announcement of West Georgia with a center in Kutaisi, the Kakhety-Shaki Kingdom and the state of Shirvanshah as vassalic estates. According to historian David, King Giorgi was forced "to sacrifice his soul and blood for the salvation of his subjects, mercy was shown upon him as the beloved son by Sultan Malikshah. As a share, he got the Kakhety-Shaki Kingdom. During his trip to get his share, he was accompanied by the Oguz detachments from the tribe of Sultan "Kinik". The Oguz brigade, which accompanied King Giorgi, occupied "Sudjety" and all Kukhety regions along the Iori". Some Turkish terms-including Ganukh; and the Azerbaijani-Turkish name of the Alazani river (A.D., I, 334, 338; A.D., II, 20; Ancient times of Georgia, p 20) are still preserved in this place. In this respect, we think that we should stress the coincidence of the data of historian David with Oghuz heroic epos "Kitabi-Dede Gorgud", that frequently complete and elucidate the notes of Georgian chronicles